**Kameral vergi yoxlaması üçün zaruri olan sanadlarin(malumatların) talab edilmasi haqqında maktub**

**Tarixi: 07.03.2017-ci il**

Vergi ödəyicisinin adı: "ALBA TRADİNG" MMC

VÖEN: 1304308391

Ünvan: AZ1122, BAKI ŞƏHƏRİ YASAMAL RAYONU, HƏSƏNBƏY ZƏRDABİ PR. ev.89 m.99

Vergi növü: ƏDV

Vergi dövrü: 01.01.2016-31.01.2017

Bəyannamənin növü: Cari (Dəqiqləşdirilmiş)

Vergi Məcəlləsinin 23.1.1-ci maddəsinə əsasən vergi orqanın Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini keçirmək hüququ vardır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 24.0.1-ci və 24.0.2-ci maddələrinə əsasən, vergi orqanları vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etməyə, vergi qanunvericiliyinə tam və dəqiq riayət etməyə və vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini gözləməyə borcludur.

Həmin Məcəllənin 37.3-ci maddəsinə əsasən kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim olunmuş bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər.

Aparılan araşdırma zamanı 2015-ci ilin sonuna 0 manat (ƏDV-li) mal qalığınızın olduğu, 01.01.2016-31.01.2017-ci illər ərzində tərəfinizdən 4184898 manat (ƏDV-li) məbləğində malların idxal olunduğu, ilin sonuna 0 manat (ƏDV-li) məbləğində mal qalığının olduğu (ehtimal olunduğu) müəyyən edilmişdir. Qeyd olunanlar, eyni zamanda, satılmış mallara ticarət əlavəsi tətbiq edilməklə müvafiq dövr üzrə tərəfinizdən vergiyə cəlb edilən dövriyyənin 3469103,3 manat (ƏDV-li) göstərilməsi, mülkiyyətinizdə və istifadənizdə təsərrüfat subyektinizin olmaması malların təqdim edilməsi və əldə olunmuş gəlirlərin vergidən yayındırılması kimi qiymətləndirilərək kənarlaşmanın yaranmasına səbəb olmuşdur.

Vergi Məcəlləsinin 159.1-ci maddəsinə əsasən malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal ƏDV üzrə vergitutma obyektidir. Vergi Məcəlləsinin 159.5-ci maddəsinə əsasən vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, belə mallardan (işlərdən, xidmətlərdən) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, fövqəladə hallardan başqa malların itməsi, əskik gəlməsi, xarab olması, tam amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanması vergi tutulan əməliyyat sayılır.

Vergi Məcəllәsinin 23.1.2-ci maddəsinin müddəalarına əsasən vergi orqanının vergi ödəyicisində olan maliyyə sənədlərini, mühasibatlıq kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq hüququ vardır.

Yuxarıda qeyd olunanalarla əlaqədar olaraq kameral vergi yoxlamasının başa çatdırılması üçün **amtaa hesabatı** da daxil olmaqla aşağıdakı sənədlərin 5 (beş) gün ərzində təqdim olunması Sizdən tələb olunur:

Sənədlər:

1. Müvafiq dövrlər üzrə cari (dəqiqləşdirilmiş) vergi bəyannamələri;
2. İdxal olunmuş malların saxlanma yeri və mal qalığı barədə ətraflı məlumat;
3. İdxal olunmuş malların satış qiymətləri barədə ətraflı məlumat (mal çeşidləri üzrə ticarət əlavələri göstərilməklə);
4. Araşdırılan dövr üzrə bank və kassa sənədləri (bank çıxarışları, ödəniş tapşırıqları, kassa mədaxil və məxaric orderləri);
5. Ətraflı izahat məktubu;
6. Araşdırmaya təqdim edilməsi üçün zəruri hesab etdiyiniz digər sənədlər.

Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər
Departamentinin baş direktorunun müavini
baş vergi xidməti müşaviri Həmid Zeynalov